Ədəbiyyat qəzeti

5 dekabr / 2020

# KAMAL ABDULLA VƏ NEHRƏM KƏNDİ

*Kamal müəllim Nehrəm kəndinə bağlı ziyalılardandır. Rəhmətlik atam Şeyx Muradəli (Muradov Mehbalının atası, el ağsaqqalı) deyərdi ki, Sultanlılar və Təhmasiblər bizim qohumlardır. Bu mənada Kamal müəllimin ana babası ilə bizim babamız qardaş olublar. Bunu heç Kamal müəllimin özü də bilmirdi. İlk dəfə biz bunu ona deyəndə həm təəccüb etdi, həm də sevindi. Nehrəm kəndində olan qohumlarına qarşı həssaslığı və öz elinə-obasına bağlılığı Kamal müəllimin hər dəfə Naxçıvana - Nehrəmə gəlişində hiss olunur. 2018-ci ildə Naxçıvana gələrkən Nehrəmin bir çox yerlərini gedib görməsi, kənddə yerləşən maddi-mənəvi abidələri ziyarət etməsi bunu sübut edir.*

*Kamal müəllim Azərbaycan dilçilik elminə, təhsilimizin inkişafına, ölkəmizdə tolerantlıq və multikulturalizm siyasətinin formalaşmasına, ədəbiyyatımızın zənginləşməsinə, ədəbi mətnlərimizin müxtəlif istiqamətlərdən öyrənilməsinə böyük töhfə vermişdir. Kamal müəllim yazıçı, müəllim, gözəl pedaqoq kimi cəmiyyətdə öz yüksək yerini tapmışdır. Ədəbi yaradıcılığında öz dəst-xətti olması, onun əsərlərinin bir çox dünya ölkələrində nəşr olunması yazıçının ədəbi fəaliyyətinin dünya əhəmiyyətli olduğunun göstəricisidir. Kamal müəllimin ədəbi yaradıcılığına ən böyük qiymət 24 may 2019-cu ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən Azərbaycan mədəniyyətinin inkşafında xidmətlərinə görə onun "Xalq yazıçısı" fəxri adına layiq görülməsidir. Bu təkcə biz yaxınlarını deyil, Kamal Abdulla yaradıcılığına müraciət edən hər bir kəsin böyük sevincinə səbəb olmuşdur.*

*Hörmətli Kamal müəllim, 4 dekabrda 70 yaşının tamam olması ilə əlaqədar yazdıqlarımız Sizin haqqınızda söyləyə biləcəyimiz ürək sözlərimizin yalnız cüzi bir hissəsidir.*

*Nehrəm kənd ağsaqqalları və ictimaiyyəti, buradakı qohumları adından Kamal müəllimi təbrik edir, ona uzun ömür, cansağlığı arzulayırıq.*

*Dərin hörmət və ehtiramla Nehrəm kənd sakinləri,*

*Muradov Mehbalı, Cəfərov Mehralı, Həsənov Həsən,*
*Həsənov Yaqub, RzayevYusif və başqaları*